BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2015*

# AİLƏ MƏİŞƏTİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ORUC BƏY BAYATIN KİTABINDA

***Ş.T.BÜNYADOVA, **Ə.S.ƏHMƏD**

***Bakı Dövlət Universiteti***

*****Bakı SlavyanUniversiteti***

**Shirin_bunyad @mail.ru;Asker@57gmail.com**

*Məqalə Oruc bəy Bayatın kitabında yer alan məişət və mədəniyyətin bir sıra məsələlərinə həsr olunmuşdur. Azərbaycan xalqının orta əsrlərdəki məişət və mədəniyyəti ilə bağlı müəyyən məqamların yer alması onun əsərini gərəkli bir mənbəyə çevirmişdir. Ailə məişəti və mənəvi mədəniyyətlə bağlı təsvirlərin araşdırılıb müqayisəli təhlil nəticəsində öyrənilməsi əsas qayəmizdir. Burada tarixi-etnoqrafiya elmi baxımından əhəmiyyət kəsb edən orta əsrlərə məxsus adət və ənənələr barədə bir sıra gərəkli məlumatların mövcud olması əsərə müəyyən dəyər qazandırır.*

**Açar sözlər:** Oruc bəy Bayat, orta əsr, ailə, məişət, mənəvi mədəniyyət

Doğma vətənində yaşadığı müddətdə müşahidə etdikləri hadisələr onun əsərində geniş əks olunmuşdur. Əsərdə bir sıra tarixi hadisələrlə əlaqədar (il və ay) müəyyən uyğunsuzluqlar mövcuddur. Lakin bu əsas etnoqrafik təsvirlərin məzmununa heç də xələl gətirmir. Azərbaycan xalqının məişət tərzi, el adət və ənənələri, nəsillərdən-nəsillərə keçən təcrübələr haqqında öz kitabında müəllifin məlumat verməsi həmin əsəri etnoqrafik baxımdan da əhəmiyyətli etmişdir. Onu da qeyd etmək lazımdır ki, «onun xüsusi şah senzurası altında yazılmayan əsəri isə Azərbaycan, İran, Qafqaz və qonşuluqda yerləşən digər ölkə və xalqların, hətta Rusiya və bir sıra Avropa dövlətlərinin tarix, coğrafiya, etnoqrafiya və mədəniyyətini öyrənməkdən ötrü dəyərli mənbədir.

Orta əsr mənbələri təsdiq edir ki, hökmdarlar əylənmək üçün tez-tez ova çıxardılar. O.Bayat yazır ki, şah ov zamanı öz yoxsul təbəələri ilə söhbət edib onların ehtiyacları barədə maraqlanardı. Onu 12000 atlı və 4000 piyada müşayiət edərdi (1, 32). Bu fakt onu sübüt edir ki, ovda şahlar tək olmur və onu müşahidə etmək üçün böyük dəstədən ibarət çoxlu adamlar burada iştirak edirlər. Hökmdar öz növbəsində ova çıxan zaman, rəiyyət ilə təmasda olaraq onları dinləyər və qeydlərinə qalmağa çalışardı. Ovçuluğun əhəmiyyət kəsb

etməsi ondan görünür ki, hətta onunla bağlı sarayda müəyyən vəzifələr daşıyanlar var idi (7, 200).

Orta əsrlərdə hakimiyyətin və gücün göstəricisi hesab edilən ovçuluq Azərbaycanda Səfəvi dövlətinin yaranması ilə bir xeyli dərəcədə populyarlaşaraq, hakim zümrənin həyat fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevrildi. Bu dövrdən etibarən ovçuluğun xarakterində baş verən mühüm keyfiyyət dəyişikliklərindən biri, onun, xüsusilə də yuxarı zümrənin həyatında əyləncə, mənəvi tələbatın ödənilməsi vasitəsinə çevrilməsi ilə bağlı idi. Azərbaycanda ovçuluğun əyləncə xarakteri daşımasını ölkəmizdə olmuş XVI əsr ingilis səyyahı Antoni Cenkinson da təsdiqləyir. Belə ki, o, bilavasitə özünün sarayın adlı-sanlı əyanları ilə birlikdə tərlan ovunda iştirak etdiyini xatırladaraq qeyd edir ki, ov zamanı ona bütün mümkün olan əyləncələri göstərdilər və bu zaman çoxlu durna öldürülmüşdü (10, 110)

Ov quşu ilə ovdan yuxarı təbəqənin xoşlandığı barədə Avropa səyyahlarının əsərlərində də məlumat verilir. Məsələn, Mikele Membre əyanların bəzilərinin şahinlərdən xoşlandığını söyləyir. Bu da təbii ki, ov zamanı istifadə olunan öyrədilmiş əl quşlarıdır. İtlərlə ova getmək barədə müəllif ötəri də olsa, bəhs etmişdir (9, 45). Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyətini tədqiq edən etnoqraf alim M. Dadaşzadə yazır: «Orta əsrlərdə ovçuluq və eləcə də əl quşu ilə ov etmək bir idman növü kimi geniş yayılmış və inkişaf etmişdi» (7, 194). O, eyni zamanda orta əsr müəllifi Cüveyniyə əsaslanaraq qeyd edir ki, orta əsrlərdə ovçuluqda əsas məqsəd təkcə ova ehtiyacın olması deyil, həm də yaxşı ox atmağa vərdiş etmək, çətinliyə qarşı dözümlülük aşılamaq olduğundan yeni nəslin təlim - tərbiyə işində bu sahəyə böyük əhəmiyyət verilirdi. Eyni zamanda burada xidmətində xeyli adamın durduğu hökmdarlar ova çıxmazdan əvvəl heyvanların müəyyən edilmiş sahəyə doğru qovulduğundan və bu meydandan onların çıxmasına imkan verilmədiyindən də bəhs edilir (7, 195). M.Dadaşzadə onu göstərir ki, Azərbaycanda hökmranlıq etmiş hökmdarların saraylarında və dövlət təşkilatlarında ovçuluq işlərinə baxan əhəmiyyətli vəzifə də olmuşdur. Müəllif xatırladır ki, əl quşu ilə ov etmək xalq arasında geniş yayılmışdır, o, hətta əl quşunun bir neçə növünün - tərlan, tiqun, qızılquş, başə, qırğı, piru, balaban, buf, şahin, qaraquş, şonqar, çərxi, humay və s. adlarını da sadalayır. Səfəvilərdə ovçuluqla bağlı dövlət təşkilatında qurumlar - mirşikarlıq və ya ovçubaşılıq mövcud olmuşdur (11, 49).

Səfəvilər dövrünə aid mənbələrdə Azərbaycanda hakim elitanın, saray əhlinin tez-tez irimiqyaslı ov əyləncələri təşkil etməsi haqqında çoxlu məlumatlar vardır. Ovçuluğun saray həyatında mühüm yer tutmasının nəticəsi idi ki, Səfəvi hökmdarlarının sarayında ovçuluqla bağlı qurum (Səfəvilərdə mirşikarlıq və ya ovçubaşılıq) təsis edilmiş və bu qurumun başında dövrünün hörmətli əyanları dayanmışdı. Məs. Səfəvi hakimiyyətinin erkən dövrlərində belə bir qurumun başında Halvaçıoğlu adıyla tanınan hörmətli bir Səfəvi əyanı durması haqqında tarixi məxəzlərdə məlumatlar vardır (12, 70). Qeyd edək ki, bu təşkilatın başlıca funksiyası, şahın ov məclislərinin təşkil edilməsi və ona

nəzarət etməkdən ibarət idi. Eyni zamanda dövrün bütün ovçuları da bu təşkilatın rəhbərinə, yəni ovçubaşına bağlı olub, onun nəzarəti altında idilər. Bu təşkilatın başında olan şəxs, mənbələrdə Əmirşikarbaşı adıyla xatırlanır (3, 58). O.Əfəndiyev əmirşikarbaşçını mirşikarbaşçı kimi təqdim edir. Ona görə mirşikarbaşı şahın ova aid işlərinin basçısı idi. Ovçubəyilər, şahin bəsləyənlər (kusçuyan) və s. mirşikarlara tabe idilər (2, 236).

Səfəvi hökmdarlarının təşkil etdikləri ov səfərləri, cəlb olunan resurslara və möhtəşəmliyinə görə seçilirdi. İlk Səfəvi hökmdarı Şah İsmayılın böyük ov pərəstişkarı olması və iri ov səfərləri təşkil etməsi haqqında tarixi qaynaqlarda çoxlu məlumatlar vardır. O, 12 yaşından ovçuluq fəaliyyətinə başlamış (12, 44-45) və ömrünün sonuna kimi bu fəaliyyəti davam etdirmişdir. Şah İsmayıl şahlığı dövründə Kunər Otlağı, Surluk yaylası, Darabcird, Qum, Çala Siyah, Rəstəkcan və s. kimi yerlərə etdiyi ov səfərləri məşhurdur. Bu səfərlərdə ovlanan heyvanların sayı minlərlə ölçülürdü. Məs. 1511-ci ildə Qum ətrafında düzənlənən ov mərasimi zamanı 26 min heyvan, Fərəhan ətrafındakı ov zamanı isə 46 min heyvan ovlanmışdı (3, 68).

Ov üsul və vasitələri uzun müddət dəyişikliyə uğramadan xalq məişətində qorunub saxlanmış, hətta XIX-XX əsrlərin əvvəllərində mövcud olmuş bu üsul və vasitələr orta əsrlərin ov üsul və vasitələri ilə demək olar ki, eynilik təşkil etmişdir. Buna işarə edən etnoqraf Ş.Quliyev ovçuluqda çəpər, xəndək, quyu, çala, tələ, tor, ox, yay, qırmaq və s. kimi vasitələrdən XIX-XX əsrlərin əvvəllərində geniş istifadə olunduğunu qeyd etmişdir (8, 295 - 313).

Ailə münasibətlərinə toxunmağı da unutmayan O.Bayat müxtəlif səpgili məlumatlar verməklə biliklərimizi daha da zənginləşdirir. Ailə həyatında nikahın rolu bütün dövrlərdə yüksək olmuşdur. Belə ki, «nikah kişi ilə qadın arasında, valideynlər və uşaqlar arasında münasibətləri qəti müəyyənləşdirir, ancaq müəyyən normalara salır, bununla da ona mühüm sosial institut xarakteri verir. Ailəyə, nikaha və qan qohumluğuna əsaslanan üzvləri məişət ümumiliyi, qarşılıqlı əxlaqi məsuliyyətlə, qarşılıqlı köməklə bağlı olan sosial qrup kimi də baxılır» (6, 121). Oruc bəy Bayatın verdiyi məlumatlardan aydın olur ki, qız bəyənən oğlanlar bəzən istəklilərinə bəzəkli məktublar göndərirlər. Hətta öz məhəbbətlərinin böyük gücünü göstərmək üçün bədənlərinin bəzi yerlərini yandırırlar və sonra isə qızın qarşısına çıxıb göstərirlər. Qız isə oğlana dəsmal, yaranı bağlamağa ipək şal və geyim göndərir. Daha çox yanıq yeri göstərən gənc qızın ürəyini qazanaraq onunla daha tez nikaha girə bilir (1, 36).

Nikaha girmə forması olan toyla bağlı adətlərin icrasına dair təsvir Oruc bəy Bayatın məlumatlarıyla öz təsdiqini tapır. O, yüksək vəzifəli dövlət adamının toyu barədə belə yazır: «yüksək vəzifəli dövlət adamı evlənmək istəyirsə, gün təyin olunur, onun qohumları və dostları bəy evinə toplaşırlar. Bu münasibətlə əlaqədar olaraq demək olar ki, hamı bəyin və onun sağdışının geyiminə uyğun paltar geyinirlər. Başqa qonaqlar da imkanları çatarsa, onlar kimi, çatmaz isə adi geyinirlər. Lazımi anda öz evindən gəlin peyda olur. Fars adətincə, o atda gəlir. Gəlini müşayiət edənlər mümkün olduğunca onun geyiminə uyğun

geyinirlər. Gəlinin üzünə üzərində qızılı rəngdə ay və günəş təsvir olunmuş duvaq örtülür. Onun qarşısında müxtəlif alətlərdə çalan çoxsaylı musiqiçilər gedirlər. Hər iki tərəf birləşirlər, bəy gəlinə tərəf yaxınlaşır və bütün gələnlər dönərək yenidən qız evinə daxil olurlar. Burada artıq kişilər üçün ayrıca zəngin bəzədilmiş otaq hazırdır, burada şənlik başlayır» (1, 37). Müəllif fikrinə davam edərək müxtəlif rəqslər zamanı oynayanların başına xırda pul töküldüyü və bunun da yalnız musiqiçilərə çatdığı haqqında da məlumat verir. O, göstərir ki, musiqiçilər rəqs zamanı zəngin «məhsul» yığırdılar. Qadınlar başqa otaqda rəqs edirdilər və onlar rəqs zamanı alına pul yapışdırmağı xoşlayırlar. Bu pullar da rəqs zamanı yerə tökülürdü, bu da musiqiçilərə çatırdı. Rəqslər qurtarandan sonra qız evində nahar yeməyinə oturulurdu. Ertəsi gün bəy evində şənlik keçirilir, bu zaman daha çox qonaqlar dəvət olunurlar. Hamı dağıldıqdan sonra iki yaşlı qadın bəyin qollarından tutub gəlin otağına aparırlar. Şənlik isə gecə yarısınadək davam edir. Əgər gəlin qız çıxırdısa, oğlan qohumları razılıqla dağılışırdılar, əks təqdirdə oğlan qızı təhqir edərək əlinə cüzi pul qoyub valideynlərinin yanına göndərirdi (1, 37-38). «Fars adətincə» - desə də, Oruc bəy Bayatın təsvirindəki bu adətlər xalqımız üçün xarakterikdir. Məsələn, duvaq örtmək, toy şənliyinin musiqinin muşayiəti ilə keçməsi, şabaş yığılması, toya qonaqların dəvət olunması və s. bu adətlərin əksəriyyəti ümumən türk dünyası xalqlarının demək olar ki, hamısında icra olunmuşdur. Bu orta əsrlərdə ortaq mədəniyyəti paylaşan bütün şərq xalqları üçün xarakterik xüsusiyyətlər olmuşdur.

Oruc bəy Bayat I Şah İsmayılın şahzadə Muradı yaxşı qarşıladığından və öz qızlarından birini ona verdiyindən söz açır (1, 72). Bu nikahın bərabər zümrələr arasında bağlandığına işarədir. Məlumdur ki, çoxarvadlılıq yuxarı zümrəyə xarakterik olmuşdur. Oruc bəy Bayat da bunu təsdiq edərək göstərir ki, onlar istədikləri qədər qadınla evlənə bilərlər, sadə adamların isə yalnız yeddisinə malik olması mümkün hesab edilir. Başqa tərəfdən isə boşanma da adi hal almışdır.

Əsərdə adqoyma ilə bağlı məqam da var ki, insanlara fəaliyyətlərilə bağlı adlar verilirdi. Məlik adlı şahzadə Bəngi Məlik deyə (təxəllüs kimi) çağrılırdı. Bu da ona keçirdiyi içkili həyat tərzinə görə verilmişdi (1, 132). Belə adlar ayama kimi başqaları tərəfindən «qoyulurdu». Bu bir tərəfdən eyni adlı adamları həm başqalarından fərqləndirmək (əgər bir addan çox adamda olardısa) üçün edilir, digər tərəfdən isə həmin şəxslərin fəaliyyətləri ilə bağlı səbəbdən dolayı onlara şamil edilirdi. Etnoqafik müşahidələr onu deməyə əsas verir ki, bu xüsusiyyət xalqımız arasında indi də qalmaqda davam edir.

Orta əsrlərdə geniş yayılmış cərəyanlardan biri olan sufizm təlimi mühüm əhəmiyyət kəsb etmişdir (11, 68-124). O.Bayat sufilərin dəfn adətlərinə toxunmuşdur. Bu təsvirdə maraqlı məlumatlar verilir. Müəllif yazır ki, dəfn adətləri qəribədir və onlar başqa müsəlman xalqlarının adətlərindən kəskin fərqlənir. Əgər əsilzadə adam vəfat etmişdirsə, onun bütün xidmətçiləri tabutun önündə qurşağa qədər soyunmuş vəziyyətdə gedirlər və sağ qollarından bir parça ət

qoparmaqla özlərini yaralayırlar. Ölənin oğulları da belə edə bilərlər. İki yüzə yaxın adam kəndirlərdən yapışaraq mərhumun ölü arabasını dartıb çəkirlər. Onlar belə edərək yüksək səslə Məhəmmədə ünvanlanmış dini şeirlər və dualar oxuyurlar. Öndə isə iyirmi oğlan Məhəmmədin Quranını oxuyaraq qoşa cərgə ilə çiyinlərində qiymətli bəzədilmiş tabut aparırlar, onlardan daha qabaqda isə əllərində üzərində rənglənmiş kağız hissəcikləri, rəngli lentlər və həmin vaxtın yetişmiş meyvələri asılmış böyük olmayan ağaclar və yaşıl budaqlar daşıyan adamlar gedirlər. Dəfn mərasiminin sonunda mehtərlərin apardığı və ölünün sağlığında sahib olduğu atlar gedir. Atlar mərhumun müharibəyə gedərkən istifadə etdiyi silahlar və yürüşdə əldə etdiyi qənimətlərlə yüklü olur. Qurşağa qədər çılpaq olan mehtərlərin çiyinlərini yaraladıqları yerdən qan tökülür. Bütün bu gedənlər daş təknə olan yerə qədər hərəkət edirlər. Bu təknənin içində ölünün bədənini yuyurlar, sonra onu ağ kəfənə bükürlər. Nəhayət yenidən hərəkətə gəlirlər. Yolda rast gələn kasıblara yemək paylanılır. Yemək beş-altı dəvəyə öncədən yüklədilib və məhz bu məqsəd üçün alınırdı. Bu müddət ərzində zurna və balaban yavaş və ahəstə səslə matəm musiqisi çalır. Bir il ərzində ölənin qohumları hər gün qəbir üstə gəlib dua oxumalıdırlar (1, 35-36). Göründüyü kimi, burada adlı-sanlı, nüfuzlu süfi təriqətinin nümayəndəsi olan şəxsin dəfn mərasimi təsvir edilir. Yuxarıda təsvir edilən xüsusiyyət yalnız sufilər üçün xarakterik hal kimi təqdim edilmişdir.

Ümumiyyətlə, müsəlman xalqlarının əksəriyyətindəki dəfn qaydasına toxunan Q.Qədirzadə yazır: «Vacib olmayan bir sıra əməllər, adət və inamlar mövcud olsa da, mərhumun yuyulması, hünutlanması, kəfənlənməsi, qəbrin quruluşu, meyit namazının qılınması, məzara endirilmə, təlqin, dəfn qaydaları islama əsaslanır. Adı çəkilən məsələlər mərhum üçün vaçib sayılır. Bunlarla bərabər bir sıra adət və inamlara da əməl edilir. Həmin əməllərin müstəhəb hesab olunmasına baxmayaraq, el arasında onlar mütləq yerinə yetirilir» (5, 182).

Şah Abbasın Ərdəbildə dəfn olunanlarının qəbri üstünə getməsi də qeyd olunan məlumatlar içərisindədir (1, 136). Yeri gəlmişkən qeyd edək ki, bu ənənə bütün əsrlər boyu xalqımız tərəfindən icra olunmuş davranış tərzidir. Bayramlarda əzizlərin qəbrini ziyarət etmək bir borc sayılmışdır. Bu xüsusiyyət indi də xüsusən Novruz bayramı zamanı qalmaqda davam edir.

Mənəvi mədəniyyətlə bağlı məsələlərə toxunulması əsərin məziyyətini daha da artırmışdır. Bəllidir ki, «ictimai hadisə olan mərasimlər (mərasimi cəhətlər) mədəniyyətin və xüsusilə mənəvi mədəniyyətin ayrılmaz bir hissəsi kimi bəşər cəmiyyəti inkişafının bütün mərhələlərində mühüm rol oynamışdır» (4, 3). Dindən bəhs edən müəllif qeyd edir ki, şiələr hesab edirlər ki, Məhəmməd peyğəmbərin yeganə və həqiqi davamçılarıdırlar.

Oruc bəyin kitabında öngörmələr haqqında məlumat yer almışdır. O, yazır ki, Şeyx Heydər yaxşı münəccim (astoroloq) idi. Müsəlmanlar onu müqəddəs hesab edirdilər. Onun öngörmələrinin hamısı sonralar həyata keçmişdi. Onun oğlu olanda öz öngörmə məharəti ilə oğlunun gələcəkdə böyük hökmdar olacağını və Məhəmməd peyğəmbərin kürəkəni olan Əlinin dininin (həqiqi

dinin) müdafiəçisi olacağını söyləmişdi (1, 66).

İskəndər Münşinin verdiyi məlumat O.Bayat tərəfindən də öz təsdiqini tapır ki, Şah Abbas qızıl və gümüş əşyaların əridilib onlardan pul kəsilərək əsgərlərin məvacibinin ödənilməsinə sərf olunması barədə fərman verir (1, 134).

Verilən məlumatlardan aydın olur ki, Şah İsmayıl Xətainin qəbri bütün ölkə üçün müqəddəs pir sayılan məsciddə yerləşir. Burada minlərlə kasıb şahın hesabına yemək və ianə alırlar (1, 125).

O.Bayatın Qəzvində müxtəlif xalqların yaşadığını qeyd etməsi həm etnoqrafik, həm də tarixi baxımdan maraq doğurur. Onlardan xüsusilə Təbrizin ətrafında da məskunlaşan çoxsaylı türkmənlərin adını çəkir və onların böyük nüfuza malik, yarım müstəqil olduqlarını söyləyir.

O.Bayat şifahi xalq yaradıcılığı nümunələrindən biri olan atalar sözündən misal çəkərək göstərir ki, «ən pis oğru, evin içindəkidir» (1, 122). Bu da ünsiyyətimizdə əsas vasitə olan atalar sözlərinin əhəmiyyətindən söz açır.

Məhəmməd Xudabəndənin Oruc bəy Bayatın atasının xatirəsinə həsr olunan rəsm əsəri çəkilməsi barədə əmr verdiyini göstərən müəllif qeyd edir ki, bu şəkil Əmir Heydərin şəninə tikilmiş Təbriz məscidinin qapısı üzərindədir (1, 118). Deməli, incəsənət əsərlərinin özünəməxsus yeri olmuşdur. Belə əsərlər ayrıca tablo şəklində olmasa da, məhz qapı, divar və s. üzərində həkk olunurdu.

Tarixi baxımdan maraq doğuran məsələdən biri də odur ki, O.Bayat şəhəri idarə edən hakim, darğa, əyalət başçısı xan, eşik-ağası başı, eşik-ağası, qapıçıbaşı, hərəm eşik-ağası kimi vəzifələrin olduğunu qeyd edir (1, 31-32).

Beləliklə, Oruc bəy Bayatın kitabında həm bilinən, həm də fərqli məlumatların əldə olunması tarixi baxımdan olduğu qədər, həmçinin etnoqrafik cəhətdən də müxtəlif biliklərin əldə olunmasında gərəkli vasitə rolu oynayır. Bu məqalədə Azərbaycanla bağlı etnoqrafik təsvirlər yer almaqdadır. Azərbaycan xalqının mədəni irsinin etnoqrafik tədqiqində, xalqımızın orta əsrlər dövrü məişət və mədəniyyətinin araşdırılmasında müəllifin əsəri mühüm mənbə sayıla bilər.

**ƏDƏBİYYAT**


1. Книга Орудж-бека Байата–Дон Жуана Персидского. (Историко-географический трактат). Баку: Язычы, 1988, 216 с.
2. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
3. Şükürov Q. "Safevîlerde Av Merasimleri", Acta Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, Yıl 1, Sayı 1, Ocak 2009, s. 57-71
4. Quliyev H. Məişətimizdə adət və ənənələr. Bakı: Azərnəşr, 1976, 130 s.
5. Qədirzadə Q. Ailə və məişətlə bağlı adətlər inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
6. Sosiologiya. Bakı: Təbib, 1994, 176 s.
7. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: Elm, 1985, 216 s.
8. Quliyev Ş. Azərbaycanda su quşlarının ovlanması haqqında. Azərbaycanın Maddi Mədəniyyəti, IV buraxılış. Bakı: Elm, 1965, s. 295-316
9. Venesiyalılar şah I Təhmasibin sarayında. (Mikele Membre və Vinçenso Alessandri) (tərc,

önsöz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oktay Əfəndiyevindir.) Bakı: Təhsil, 2005, 112 s.
10. Путешественники об Азербайджане т. 1, Баку: АН Азерб ССР, 1961, 500 с.
11. Əhməd Ə. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı: Elm, 2012, 368 s.
12. Hasan Bey Rumlu. Şah İsmail Tarihi, çev. Cevat Cevan, Ardıç yayınları, Ankara: 2004, 256 s.

## ДУХОВНАЯ КУЛЬТУРА И СЕМЕЙНЫЙ БЫТ В КНИГЕ ОРУДЖ БЕКА БАЯТА

**Ш.Т.БУНЯТОВА, А.С.АХМЕД**

### РЕЗЮМЕ

Орудж-бек Байат родился 1560-ом или 1567-ом году. Происходил он родом от баятской племени кызылбашей. Книга Орудж-бека Байата–Дон Жуана Персидского (Историко-географический трактат) является одним из самых интересных источников для изучения этнографического наследия азербайджанского народа в средние века. Книга была уникальна для своего времени. В ней описывается обычаи и обряды связанные семейным бытом. Особенно ценным является описание автором похоронного обряда суфиев.

**Ключевые слова:** Орудж-бек Байат, средние века, семья, быт**,** духовная культура

## SPIRITUAL CULTURE AND FAMILY LIFE IN THE BOOK BY ORUJ BAY BAYAT

**Sh.T.BUNYADOVA, A.S.AHMAD**

### SUMMARY

Oruj Bay Bayat was born in either 1560 or 1567. He descended from Qizilbash Bayat tribe. The book by Oruj Bay Bayat – Don Juan Persian (Historical and geographical treatise) is one of the most interesting sources for the study of the ethnographic heritage of the Azerbaijani people in the Middle Ages. The book was unique for its time. It describes the customs and rituals related to family lifestyle. The author's description of funeral rites of the Sufis is especially valuable. The article deals writh some issues of households and culture in the book by Oruj bay Bayat.

**Key words:** Oruj bay Bayat, ethnography, medieval, family, life, spiritual culture